UNHCR
The UN Refugee Agency

# AZƏRBAYCAN MƏLUMAT BÜLLETENİ

# Azərbaycan

Sentyabr, 2023-cü il

BMT QAK Azərbaycandakı məcburi köçkünlər, qaçqınlar və vətəndaşlığı olmayan şəxslər üçün **dayanıqlı həllərin** təşviqində Hökumətlə birgə işləyir.

Məcburi köçkün icmalarının **özünü təmin etməsinə** dəstək göstərilməsinə yönəlmiş müdaxilələrlə yanaşı, BMT QAK icma səfərbərliyi, hüquqi və sosial yardım proqramları həyata keçirir.

BMT QAK-ın yanaşması BMT-nin 2030-cu il Gündəliyində və Qaçqınlar üzrə Qlobal Sazişdə əks olunan humanitar və **dayanıqlı inkişaf** prioritetləri ilə uzlaşır.

## BMT QAK-IN ƏHALİ STATİSTİKASI (1 iyul 2023-cü ildə)*

| | |
|---|---|
| Qaçqınlar | 6277 |
| Sığınacaq axtaranlar | 158 |
| Vətəndaşlığı olmayanlar | 3585 |
| Məcburi köçkünlər | 658793 |

### Üç başlıca mənşə ölkəsi*

**Qaçqınlar**

| | |
|---|---|
| Ukrayna | 4,667 |
| Əfqanıstan | 1,126 |
| Rusiya Federasiyası | 303 |

**Sığınacaq axtaranlar**

| | |
|---|---|
| Ukrayna | 108 |
| Pakistan | 31 |
| Əfqanıstan | 15 |

**BMT QAK-ın 2023-cü ildə dərc olunan yarımillik hesabatı and Qurumun məlumat axtarma bazası (data finder)*

## QLOBAL QAÇQIN FORUMU (QQF) ÜZRƏ YENİLİKLƏR

### Azərbaycanla bağlı 2019-cu ildən 5 öhdəlik qeydə alınıb.

Bunlar təhsil, maddi baxımdan təminat, idman və yaradıcılıq, enerji və infrastruktur və vətəndaşsızlıq sahələrinə aiddir.

### Azərbaycanda olan qaçqınlar üçün biometrik yol sənədlərinin verilməsi

Azərbaycanda hökumət tərəfindən tanınan qaçqınlar 2020-ci ildən etibarən maşınla oxuna bilən biometrik yol sənədləri əldə edə bilirlər ki, bu sənəd onlara xarici səfərlər etməyə imkan verir. Yol sənədini əldə etməklə, qaçqınlar və onların ailə üzvləri hərəkət azadlığı hüququndan tam istifadə edə bilirlər və bu onların ümumi dayanıqlılığının və rifahının yaxşılaşmasına xidmət edir. BMT QAK bu nailiyyətin əldə olunması prosesində aidiyyəti dövlət qurumları ilə intensiv texniki məsləhətləşmələri təşkil edən Dövlət Miqrasiya Xidmətinə dəstək göstərib.

## ƏSAS MƏQAMLAR

### 38188 məcburi köçkün

BMT QAK-ın maliyyələşdirdiyi layihə çərçivəsində minalarla bağlı məlumatlandırma sessiyalarında iştirak edib.

### Vətəndaşsızlıqla bağlı Regional Konfrans

BMT QAK və DMX tərəfindən Azərbaycan, Gürcüstan, Qazaxıstan, Moldova və Türkiyədən olan yüksək səviyyəli məmurların və ekspertlərin iştirakı ilə təşkil olunub.

### 2852 məcburi köçkün və digər həssas qruplardan olan şəxs

2023-cü ilin may ayında Yaponiyanın "Fuji Optical" şirkətinin göz müayinəsi üzrə humanitar yardımından faydalanıb.

### 1556 qaçqın

2023-cü ilin may-iyul aylarında BMT QAK tərəfindən təşkil olunan şəxsi məlumatların yoxlanması prosesindən keçib.



### "VƏTƏNDAŞLIĞA GEDƏN YOL"

BMT QAK-ın Dövlət Miqrasiya Xidməti ilə birgə hazırladığı 'Vətəndaşlığa gedən yol' adlı qisa video əvvəllər vətəndaşlığı olmayan şəxs olmuş insanların vətəndaşlıq əldə etdikdən sonra həyatlarındakı müsbət dəyişikləri nümayiş etdirməklə onların uğur hekayələrini işıqlandırır. Video 6 iyul 2023-cü il tarixdə Bakı şəhərində təşkil olunmuş Vətəndaşsızlıqla bağlı yüksək səviyyəli Regional Konfransda nümayiş olunub və yerli televiziya kanallarında yayımlanıb.

## Əsas prioritetlər

- **Məcburi köçkün icmalarının dəstəklənməsi:** BMT QAK Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Minatəmizləmə Agentliyi və digər tərəfdaşlarla sıx əməkdaşlıq çərçivəsində məcburi köçkün icmalarında minalarla bağlı məlumatlandırma, icma səfərbərliyi, hüquqi və sosial yardım və qadınların səlahiyyətləndirilməsi ilə bağlı işlər aparır.
- **İcmanın səlahiyyətləndirilməsi və özünü təmin etməsi:** BMT QAK 2023-cü ildə icma səlahiyyətləndirilməsi üzrə Mingəçevir şəhərində, Goranboy və Yevlax rayonlarında məcburi köçkün icmaları tərəfindən hazırlanmış altı layihəyə dəstək verib və 30 gənc peşə təlimlərinə cəlb olunub. Bundan əlavə, 114 nəfər icma paraleqalları və gender maarifləndiriciləri üçün təlim keçirilib.
- **Hüquqi və sosial yardım:** Yeddi şəhər və rayonda icra olunan hüquqi yardım və hüquqi məsləhət layihəsi üzrə 3000-dən çox köçkün faydalanıb. BMT QAK 2023-cü ildə, həmçinin 1100-dən çox qaçqın və vətəndaşlığı olmayan şəxsə hüquqi yardım və məsləhət xidməti göstərib.
- **Əraziyə giriş:** BMT QAK Dövlət Miqrasiya Xidməti və Ombudsman Aparatı ilə birgə hüquq mühafizə orqanları əməkdaşları üçün beş təlim sessiyası keçirib və altı sərhəd monitorinq missiyası təşkil edib ki, bu missiyalar zamanı beynəlxalq standartlara uyğun istiqamətləndirmə mexanizmləri nəzərdən keçirilib.
- **Qaçqınların inteqrasiyası və daxil edilməsi:** Qaçqınların əmək bazarına, təhsil və səhiyyə xidmətlərinə çıxışı var. 2023-cü ildə doqquz qaçqın rəsmi işlə təmin olunub. BMT QAK 60-dan çox qaçqın tələbəyə “DAFI” (Albert Eynşteyn Alman Akademik Qaçqın Təşəbbüsü) Təqaüd Proqramı və ya illik təhsil haqlarının ödənməsi yolu ilə dəstək göstərib. İki qaçqın Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2023-cü ilin may ayında keçirilmiş “Küləyə qalib gəl” marafonunda iştirak edib.
- **Qaçqınlar və vətəndaşlığı olmayan şəxslərlə əlaqə:** BMT QAK 2023-cü ilin may ayında qaçqınlar və sığınacaq axtaran şəxslərlə müştərək qiymətləndirmə həyata keçirdi. Bakı şəhərində fəaliyyət göstərən Qaçqın İcma Mərkəzində qaçqın icmalarından olan könüllülər müxtəlif bacarıqların aşılanması üzrə təlimlər təşkil edirlər.

## Tərəfdaşlarla iş

- BMT QAK zorla didərgin salınanlar və vətəndaşlığı olmayan şəxslər üçün himayə məkanını yaxşılaşdırmaq üçün hökumətlə və mülki cəmiyyətlə əməkdaşlıq edir.
- **Xarici əlaqələr**: BMT QAK zorla didərgin salınmış şəxslər və onların pənah gətirdiyi icmalar üçün faydalı olan layihələri və imkanları müəyyənləşdirmək üçün özəl sektor və inkişaf agentlikləri ilə əməkdaşlıq edir. BMT QAK Ümumdünya Qaçqınlar Gününün qeyd olunması məqsədi ilə “Evdən uzaqda ümid: Qaçqınların heç vaxt təcrid olunmadığı bir dünya” şüarının təşviqi çərçivəsində tədbir təşkil edib.

## Vətəndaşsızlıq

- Azərbaycan vətəndaşsızlıqla bağlı 1954-cü il və 1961-ci il konvensiyalarına qoşulub. #IBelong (mən aidəm) kampaniyası dövründə təqribən 2000 vətəndaşlığı olmayan şəxs vətəndaşlıq əldə edib, 6000-dən çox şəxsin vətəndaşlıq mənsubiyyəti müəyyən edilib.
- BMT QAK vətəndaşsızlığın azaldılması sahəsində hökumətlə sıx əməkdaşlıq edir. Vətəndaşsızlıq riski altında olan yeddi nəfər 2023-cü ildə hüquqi yardım xidmətlərindən faydalanaraq vətəndaşlıq əldə edib.

## BMT QAK Azərbaycanda

**Heyət:**

Milli heyət - 24

Xaricilər - 3

Köməkçi heyət - 9

**İdarələr:**

Bakı şəhərində Nümayəndəlik

## Maliyyə məlumatı (Sentyabr 2023-cü il)

**Maliyyə ehtiyacları**

7.4 M $



**Təmin olunub**
**47%**
**3.5 M $**

**Çatışmayan**
**53%**
**3.9 M $**

BMT QAK ən çox ayırmalar etmiş hökumət donorlarına şərtsiz, qismən şərtli və şərtli ianə dəstəyinə görə təşəkkürünü bildirir.

**Belçika | Kanada | Danimarka | Fransa | Almaniya | İrlandiya | Niderland | Norveç | İsveç | İsveçrə | Birləşmiş Krallıq | Amerika Birləşmiş Ştatları**

BMT QAK, həmçinin özəl sektordan və fərdlərdən gələn səxavətli ayırmalara görə minnətdarlıq ifadə edir.